Azərbaycan.- 2024.- 2 fevral, № 22.



# Fransa beynəlxalq nüfuzunu itirib

**"Fransanın yürütdüyü siyasət fransızlarla bərabər, bəşəriyyət üçün də məqbul deyil. Bu siyasət bilavasitə təcavüzə, riyakarlığa və qarşıdurmalara hesablanıb. Prezident Emmanuel Makron başda olmaqla, demək olar ki, ölkənin bütün rəsmi dairələrinin verdiyi bəyanatlar, səsləndirdikləri fikirlər, qəbul olunan qətnamələr və sənədlər göstərir ki, Paris Azərbaycana qarşı anti-təbliğat kampaniyası aparır. Bununla yanaşı, həm də demokratik dəyərlərə, beynəlxalq normalara sayğısızlıq nümayiş etdirir. Fransa tarixən müstəmləkəçi dövlət olub, 50-dən çox ölkəni on illər boyu təsiri altında saxlayıb, varını-dövlətini talayıb, millətləri ağır vəziyyətə salıb. Zamanla yürütdükləri bu təcavüzkarlığı dövlət siyasətinə çevirdikləri bu gün də Fransann fəaliyyətində özünü açıq şəkildə göstərir".**

Bu fikirləri "Azərbaycan" qəzetinə açıqlamasında Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Komitə sədri bildirib ki, Fransa Azərbaycanın müstəqil siyasət yürütməsini həzm edə bilmir: "Ona görə də müxtəlif təsir mexanizmlərini işə salaraq bundan bəhrələnmək istəyir. Fransa Ermənistandan da təsir vasitəsi kimi istifadə edir. Halbuki Fransanın bu cəhdləri Ermənistana yaxşı heç nə vəd etmir. Əksinə, Fransa erməni xalqının taleyinə acımaq adı altında onların gələcəkdə daha ağır faciələrlə üzləşməsinə yol açır. Paris təsiri altına aldığı, münaqişələrə həvəsləndirdiyi ölkələrə heç vaxt arxa-dayaq olmayıb. Lakin siyasətini düzgün qura bilməyən, daim başqalarına arxalanan ermənilər kimi aciz millətlər Fransanın yağlı dilinə, onun saxta vədlərinə aldanır, nəticədə isə ağır günlər yaşayırlar".

Tahir Rzayevin sözlərinə görə, bu gün Fransadakı ictimai siyasi vəziyyətlə Ermənistanda baş verən hadisələr, demək olar ki, eyniyyət təşkil edir. Hər iki dövlət təcavüzkardır, onlar faşizmə, ədalətsizliyə, haqqın və ədalətin boğulmasına xidmət edirlər. Fransanın yanlış siyasəti nəticəsində ölkədə iğtişaşlar, qarşıdurmalar baş alıb gedir, iqtisadiyyatı zəifləyir. Bu ölkə beynəlxalq aləmdə nüfuzunu itirmək üzrədir. Ən uğursuz hakimiyyət olan Makron iqtidarı Fransaya ağır günlər yaşadır. Hər vəchlə Ermənistanı silahlandırmağa can atan Fransa heç bu ölkəyə də fayda vermir. Əks halda Ermənistanda ictimai-siyasi sabitlik hökm sürər, hər gün keçirilən mitinqlər, hakimiyyətə qarşı çıxışlar, etirazlar Paşinyan hakimiyyətini çıxılmaz vəziyyətə salmazdı.



Komitə sədri onu da deyib ki, təcavüzkar dövlətin uğur qazanması mümkün deyil: "Ermənistan 30 ildən çox Azərbaycan torpaqlarını işğal altında saxladı, xalqımızın başına ağır müsibətlər gətirdi. Nəticədə nə baş verdi?! İflasa uğradı, ağır məğlubiyyətə düçar oldu. İndinin özündə də onların tutduğu yol yeni faciələrə yol açır, erməni xalqını çətin vəziyyətdə qoyur. Bunun səbəbi odur ki, Ermənistan Fransa və Almaniya kimi ölkələrin məkrinə ümid bağlayır, revanşizmə həvəslənir. Lakin unudur ki, Azərbaycan güclü dövlətdir. Güclü ordusuna, dayanıqlı iqtisadiyyatına, xalq-hakimiyyət birliyinə arxalanan Azərbaycan hər an maneələri qət etməyə, düşmənə layiqli cavab verməyə hazırdır. Ancaq Fransa kimi dövlətlər bunu dərk etmir və dünyada yaranmış müharibə vəziyyətinə yeni bir münaqişə qatmaq həvəsi ilə yaşayırlar. Bu məqsədlə xalqları, ölkələri qarşı-qarşıya qoymaq üçün fitnəkarlığa, ən çirkin əməllərə əl atırlar".

Tahir Rzayev yekunda vurğulayıb ki, demokratiyadan, insan hüquq və azadlıqlarından, o cümlədən beynəlxalq normalardan dəm vuran Fransanın bugünkü mövqeyi bütün bunların yalnız sözdə olduğunu göstərir: "Fransanın əməllərində bu ali dəyərlərə rast gəlmək mümkün deyil. Odur ki, Fransa ilə Ermənistanı birləşdirən təcavüzkarlıq əməllərinin sonu yoxdur. Onların çirkin niyyətləri hər iki dövləti beynəlxalq aləmdə nüfuzdan salır, əksinə, Azərbaycanın nüfuzunu daha da yüksəldir. Bu gün Fransanın və Almaniyanın təkidi ilə Azərbaycan nümayəndə heyətinin AŞPA-da səsinin dondurulması, əslində, bu təşkilatın, eləcə də Fransa və Almaniyanın imicinə ciddi zərbə vurdu".

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*